# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 16 /Jan/ 2021

İslam İnqilabının Ali Rəhbərinin iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət gecəsinə həsr edilmiş matəm mərasimi keçirildi.

Mərasimdə çıxış edən Höccətül-İslam vəl-müslimin Ali Əhli-beytdən (ə) gələn duaların Allahla mənəvi rabitə yaratmaq, insanın ilahi nur və lütflər əldə edə bilmə imkanlarını artırmaq üçün qiymətli bir xəzinə olduğunu dedi: "Bərəkətli dua və təvəssül insanın doğru yoldan çıxması və sapmasına mane olur. Buna görə də insanın ictimai məsuliyyəti nə qədər böyük olsa, dua, təvəssül və Allahla xəlvətə çəkilməyə ehtiyacı daha da çoxalır".

Mərasimdə çıxış edən Höccətül-İslam Ziyai zikri-müsibət və rövzə oxudu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**